# Qubadlılılar Xocalı soyqırımının 28-ci ildönümünü dərin hüznlə yad etdilər



❒ ***Xocalı faciəsinin ildönümü ilə bağlı Qubadlı rayonunun idarə, müəssisə və təşkilatlarında anım tədbirləri keçirildi.***

Bu tədbirlərin yekunu olaraq Qubadlı Rayon İcra Hakimiyyəti və YAP Qubadlı rayon təşkilatının birgə təşkilatçılığı ilə H. Quliyev adına Çaytumas kənd məktəb– liseyində keçirilən tədbirdə RİH başçısının müavinləri Allahverdi Haxverdiyev və Xoşqədəm Alıyeva rayonun digər işçiləri RİH-nin məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Anım mərasimini məktəbin direktoru Şamama Həsənova açıq elan etdikdən sonra Xocalı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Daha sonra faciəni əks etdirən film nümayiş olundu.

Tədbirdə qeyd edildi ki, tarixən Azərbaycan xalqına qarşı soyqırımı siyasəti həyata keçirən erməni faşistləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək, 28 il bundan əvvəl dinc əhaliyə divan tutmuşlar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ ərazisindəki ermənilərin qeyri-qanuni silahlı dəstələri, keçmiş SSRİ-nin Xankəndidə yerləşən 366-cı motoatıcı alayın şəxsi heyətinin və hərbi texnikasının bilavasitə iştirakı ilə Xocalı şəhərinə hücuma keçərək, Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirmişlər.

Xocalı soyqırımının dünyaya çatdırılması bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli faciənin əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə azərbaycanlılara qarşı zaman-zaman törədilmiş soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Sonda bildirildi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasət sayəsində torpaqlarımız işğaldan azad ediləcək və şəhidlərimizin ruhu rahatlıq tapacaqdır.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2020.- 28 fevral.- S.10.